# İtaliyanın Bolonya şəhərində “G20 VIII Dinlərarası Forum” öz işinə başlayıb

İtaliyanın G20-yə sədrliyi çərçivəsində Bolonya şəhərində “G20 VIII Dinlərarası Forum”un açılış mərasimi keçirilib.

Forumda ölkəmizi Azərbaycanın dini konfessiya rəhbərlərinin təmsil olunduğu nümayəndə heyətinin rəhbəri qismində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə və mədəniyyət naziri Anar Kərimov təmsil ediblər. AZƏRTAC xəbər verir ki, “Mədəniyyətlər arasında sülh, dinlər arasında anlaşma” şüarı ilə keçirilən forumda dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçıları, dini liderlər, xarici işlər, təhsil, mədəniyyət və dini işlər nazirləri, beynəlxalq təşkilatların rəhbərləri, görkəmli alim və ictimai xadimlər iştirak ediblər.



Açılış mərasimində İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın forum iştirakçılarına ünvanladığı müraciəti oxunub.

Forum işini panel sessiyalarla davam etdirib.

Üç gün davam edən Dinlərarası Forumda COVID-19 və iqlim dəyişikliyi, qaçqın, məcburi köçkün və miqrantlara lazımi dəstəyin göstərilməsi, din və etiqad azadlığının, qadın və uşaq hüquqlarının qorunması, irqçilik, terrorizm, insan alveri, nifrət çağırışları ilə mübarizə və sair bu kimi müasir dünyaya qlobal təhlükə və təhdid yaradan problemlər müzakirə olunub.

Azərbaycan.- 2021.- 15 sentyabr.- S.3.